## Görkəmli şəxsiyyətlərin Nizami Gəncəvi haqqında deyimləri

Nizami Gəncəvi elə böyük şəxsiyyətdir ki, onun yubileyini hər il keçirmək lazımdır!

*Heydər Əliyev*

Bütün Azərbaycan xalqı Nizami Gəncəvi ilə fəxr edir... O bu torpaqda yaşayıbdır, bu torpaqda yazıbdır. Onun yazdığı əsərlər bütün dünyada məşhurdur. Təsəvvür edin, 850 il bundan öncə bu qədər böyük əsərlər yaratmaq!.. Bu əsərlər təkcə şeirdən ibarət deyildir, onların hər birində böyük elm var, böyük fəlsəfə var, dahi fikirlər var. Buna görə onun əsərləri də yaşayır, özü də yaşayır.

*Heydər Əliyev*

*Azərbaycan xalqının ümummilli lideri*

Nizami Gəncəvi ümumbəşəri mahiyyət daşıyan, ecazkar poetik qüvvəyə malik yaradıcılığı ilə Şərq bədii təfəkkürünü elmi-fəlsəfi fikirlərlə zənginləşdirmiş və şeiriyyəti görünməmiş yüksəkliklərə qaldırmışdır. Mütəfəkkir şairin məşhur "Xəmsə"si insanlığın mənəvi sərvətlər axtarışının zirvəsində dayanaraq dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutur.

*İlham Əliyev*

*Azərbaycan Respublikasının Prezidenti*

Nizami Gəncəvi Azərbaycan mədəniyyətinin və tarixinin ən görkəmli şəxsiyyətlərindən biridir. Nizami yaradıcılığı bütün dünyada sevilir. Bu gün şairin əlyazmaları dünyanın bir çox kitabxanalarında və arxivlərində saxlanılır.
Nizami yaradıcılığı yüksək sənətkarlıq, ədalət, xeyirxahlıq düşüncələri ilə seçilir. Hələ orta əsrlərdə – Renessans dövründə bir çox Avropa ədibləri Nizaminin əsərlərinə müraciət edib.

*Mehriban Əliyeva*

*Azərbaycan Respublikasının birinci vitse-prezidenti*

Nizaminin yaradıcılığı bəşəriyyətin bədii inkişaf tarixinin qızıl səhifəsidir.

Mirzə Fətəli Axundzadə

Azərbaycan və Şərq dramaturgiyasının və realist nəsrinin banisi

Nizami əsərlərini fars dilində yazmasına baxmayaraq, həmişə bir azərbaycanlı kimi düşünmüş, öz obrazlı ifadələrini həmişə xalqdan, canlı xalq dilindən almışdır. Təsadüfi deyildir ki, farslar Nizami və Xaqani şeirlərindən danışanda "buye tork miayəd" ("bunlardan türk qoxusu gəlir") deyirlər.

Həmid Araslı

Azərbaycan SSRİ EA həqiqi üzvü, akademik

Bəşəriyyətin böyük oğlu, Azərbaycan xalqının coşğun ilhamlı nəğməkarı qarşısında baş əyirəm.

*Çingiz Aytmatov*

Həkimi-mənəvi Şeyx Nizami Gəncəvinin böyüklüyünü və fəzilətlərini söyləməkdə dil acizdir. Zərifliyi, söz və söhbətilə məclis bəzəməkdə, ümumun rəyincə onun misli olmamışdır.

*A. Bakıxanov*

İnsanın qəlbini təlatümə gətirən Nizami lirikası, dünya şöhrəti qazanan "Xəmsə" şairin mənəvi dünyasına misilsiz nümunədir, öyrənilməsi zəruri olan zəngin bədii xəzinədir. Bütün şairlər onun ustalığını etiraf etmişdir".

*Abasqulu ağa Bakıxanov*

*tarixşünas, yazıçı-mütəfəkkir, tərcüməçi*

Nizaminin böyük poemaları Azərbaycan şeirinin iftixarıdır, onlar eyni zamanda bütün sovet xalqlarının iftixarıdır. Bu əsərlərin öyrənilməsi milyonlarla sovet adamının qəlbino haqlı iftixar hissi ilə, müqəddəs sovet vətənpərvərliyi hissi ilə coşdurur.

*Mikola Bajan*

Azərbaycanın Gəncə şəhərində dünyaya göz açan Nizami Gəncəvinin əsərləri bütün dövrlər üçün əvəzsiz xəzinədir. Dahi Nizaminin yaradıcılığı digər xalqlar üçün də böyük əhəmiyyət daşıyır, italyan dilinə də tərcümə edilir, sevilir.

*Mineli Bernardini*

*Neapol universitetinin professoru, şərqşünas-alim*

Nizami... ədəbiyyat tarixində yeni bir səhifə açmışdır. Onun nəzəri keçmişə ancaq gələcəyin yolunu işıqlandırmaq üçün, həmişəlik olaraq zülm

hakimiyyətindən xilas olmağa imkan verən bir yol axtarmaq üçün çevrilir... Nizami... düşündürür, həyəcanlandırır, çünki o, bəşəriyyətin böyük bir hissəsinin qarşısında belə növbədə duran problemlərə toxunur.

*Y.E.Bertels*

Onun yaradıcılığı bizim üçün heç cür izah edilə bilməyən bir möcüzədir; Hər bir fikir onun qələminə öz poetik və bədii ifadə formasında hazır gəlmişdir. Hər halda dünya ədəbiyyatında belə bir insan tapmaqda mən çətinlik çəkirəm. Nizami üçün heç bir miqyas yoxdur, onu yalnız öz miqyası və öz yaradıcılıq meyarı ilə ölçmək olar.

*Y. E.Bertels*

...Böyük eşq tərənnümçüsü olan Nizamidən başqa heç kəs belə lirika (qəzəlləri nəzərdə tutulur) yarada bilməzdi, bu lirika hətta onun böyük poemalarının gözqamaşdırıcı mənzərələri yanında belə öz qüvvəsini itirmir.

*Y. Bertels*

Nizami Gəncəvi 1188-ci il sentyabr ayının 24-də bitirdiyi «Leyli və Məcnun» əsərini türk dilində yazmaq istəyir. "Leyli və Məcnun"u türk dilində deyil, fars dilində yazmasını əmr verən Axsitanın hərəkətləri onu çox qəzəbləndirir, amma oğlu Məhəmmədin xahişi ilə əsəri farsca yazmağa razılıq verir. Şair öz etirazını əsərdə belə şərh etmişdi: "Nə cürətim vardır əmrdən qaçam, nə də könlün vardır xəzinə açam.

*Y. Bertels*

*şərqşünas alim, SSRİ EA müxbir üzvü,*

*SSRİ Dövlət Mükafatı laureatı*

Öz müasirlərinin lirik əsərlərindən fərqli olaraq Nizami lirikasının əsas xüsusiyyətləri onların dərin fikir və məzmuna malik olmasıdır.

*Aleksandr Boldırev*

Nizami müsəlman Şərqindəki şairlərdən birincisidir ki, xalqların və qəbilələrin birliyi məsələsini xüsusi bir qüvvətlə meydana atmışdır.

*İosif Braginski*

Nizaminin parlaq və tərifəlayiq kamilliyinin izahata ehtiyacı yoxdur. Çünki heç kimin onun qədər xoş və incə mənalar saçmağa qüdrəti ola bilməz, bu, insan nəslinin imkanları xaricindədir.

*Cami*

Söz xəzinəsinə, mülkünə hakim,

Gəncə hünərvəri, o böyük alim,

Qızıl rəngli meyi əlinə aldı,

O içdi səfanı, xılt bizə qaldı.

*Əmir Xosrov Dəhləvi*

Nizaminin bilik və kamalda böyüklüyü o dərəcədədir ki, yazmaqda və söyləməkdə dil acizdir. Onun sözündə şirinlik, məlahət və gözəllik vardır. Odur ki, kamal sahibləri onu çox sevirlər.

Nizami əfsanəvi qəhrəmanlar yaratmaq və roman yazmaq sənətinin banisi və ixtiraçısıdır. O öz şirin poemaları və duzlu hekayələri vasitəsilə oxucunu təbiətin sirləri və həyat fəlsəfəsinin rəmzləri ilə tanış edir, bəşər əxlaqı və insanlıq vəzifələrinin süurlara yeridilməsi işində nəsihətçiliyin ən yüksək mövqeyini tutur.

*Vahid Dəstgirdi*

Öz əksini bizim əsərlərdə (fransız ədəbiyyatında) tapan bir neçə epizod Nizaminin “Yeddi gözəl” və “Xosrov və Şirin” əsərlərindən götürülmüşdür.

*Bartelemi Derblo*

Nizami yüksək yaradıcılıq ilhamına malik olan bir şəxsiyyətdir. İnsana bəzən ikimənalı görünən hadisələri Nizami hər dəfə əməli yaradıcılıq işində daha aydın göstərir, insan qəlbinin bu əsrarəngsiz fəaliyyətindən doğan məsələlərin hamısını həll edir.

*İ. V. Gete*

Yüksək şair dühasına malik Nizami əsərlərində zərif eşq, dərin məhəbbət əlaqələrindən... bəhs edir... Poemaları heyrətamiz dərəcədə gözəl və rəngarəngdir. Nizaminin əxlaqi məsələlərə həsr edilmiş əsərlərində də bədii səmimilik var.

Əgər Firdövsi bütün qəhrəmanlıq əfsanələrindən istifadə etmişsə, yüksək ilhamlı şair olan Nizami ən incə məhəbbət əlaqələrinin ən incə xətlərini öz əsərləri üçün material seçmişdir.

İnsana məhəbbət hissi Nizaminin əsərlərində dahiyanə ifadə olunmuşdur.

*İ.V.Gete*
şair, filosof, dövlət xadimi

Almaniyanın özünün də böyük şairləri var... Lakin... Nizaminin qarşısında onlar kimdir?!

*Henrix Heyne*

Nizami hər yerdə, hər zaman eşq aramış və bu eşqin barəsində yüzlərlə hikmətli söz yaratmışdır. Nizami poemalarını cəsarətlə "məhəbbət enisiklopediyası" adlandırmaq mümkündür.

*Mehdi Hüseyn*

Azərbaycan xalqının şərəfi və iftixarı olan Nizami Gəncəvi dünya ədəbiyyatında elə nəhəng simalardan biridir ki, onun yaradıcılığı bəşəriyyətin təfəkkür salnaməsinin qızıl fonduna daxildir.

*Mirzə İbrahimov*

Nizami Azərbaycan ədəbiyyatında misilsiz simadır. Haqlı olaraq Şərq dəbiyyatının və bütün dünya ədəbiyyatının banilərindən biri sayılır.

*V. Karpov*

Nizami ən böyük romantik şairdir, sonrakı şairlər nəslinin təqlid mənbəyidir....

... Nizami - böyük Azərbaycan şairi – romantiki, təkcə Azərbaycan poeziyasının deyil, eyni zamanda dünya poeziyasının ilham məmbəyi olmuşdur.

*Aqafangel Krımski*

Şeyx Nizami böyük şairlərdən biri olub. Onun kimi fəcih, rəvantab və şirinzəban şair dünya üzərinə az gəlibdir. Heç bir şair o ləyaqət və zəriflikdə söz deməyibdir.

*Firudin bəy Köçərli*

*Azərbaycan ədəbiyyatşünaslığının banisi, pedaqoq, maarifçi*

Bütün dövrlərin mütəfəkkirləri Nizaminin beş poemasını poeziyanın möcüzəsi, beş incisi adlandırmışdır.

*Lyusian Klimoviç*

*Rusiya əbəbiyyatşünası, şərqşünas-alim*

Nizami elə uzaqgörən şəxsiyyət olmuşdur ki, onun yaradıcılıq gəmisi başlanğıcı və sonu olmayan "insan qəlbi" adlı yeganə dənizdə adadan-adaya üzür".

*Rudolf Qelpne*

*tanınmış İsveç şərqşünası, ədəbiyyatşünas-alim*

...Bəşəriyyət tarixində və bütün dünyada hələ indiyə qədər Nizamiyə bərabər başqa bir şair yaranmamışdır.

*H.J.Marr (akademik)*

Nizami dahi və humanist mütəfəkkirdir. O, gözəl poeziyasında olduğu kimi, ədalətə, bəşəriyyətə məhəbbətində də ədalətlidir. Nizami despotizmə qarşı cəsarət və qətiyyətlə mübarizə aparmışdır. Biz onu... dünya şairi hesab edirik.

*İvan Meşşaninov*

Nizaminin təxəyyül qüvvəsi, yaradıcılıq bacarığı və təşəbbüsü heyrətamizdir. Bir qissə  və ya hekayənin icdadında, mətləblərin nəzm və tərtibində o qədər bədiilik, təşəbbüs zərifliyi və vüsəti vardır ki...

*Şibli Neman*

Nizami Yaxın Şərq epik ənənəsi üçün şeir qanunu yaradıcısı olmuşdur... Nizamiyə hamı nəzirə yazmaq istəyirdi, amma ona ancaq böyük sənətkarın nəzirə yazmağa haqqı vardı...

Aşiqanə şeirin, məhəbbət nəğmələrinin yaradıcısı Nizamidir... Nizami dastanlarının hər beyti bir qəzələ bərabərdir...

Nizaminin göstərdiyi qüdrətdən Firdövsidə əsər belə yoxdur və bu cəhətdən o, Nizamiyə tay ola bilməz.

*Məhəmməd Şibli Nemani*

O, Gəncə torpağında yatan müqəddəs insan

Şeir xəzinələri yaratdı kəlamından.

Qiymətli incilərlə bəzədi bu aləmi,

Yoxdur o incilərin sayı ulduzlar kimi...

Nizami,  bu dünyada kimi tay tutsam sənə,

Şeirinin qüdrətinə bərabər olmaz yenə.

*Əlişir Nəvai*

Olmaz asan bu meydan içrə durmaq,
Nizami pəncəsinə pəncə vurmaq

*Nəvai Əlişir*

Nizami bir fildir, yox bərabəri,

Söz incisi ondan aldı dəyəri.

Gəncədə olsa da aramı onun,

Xəzinələr üstədir məqamı onun.

*Əlişir Nəvai*

...Bütün poetik formaların öz ustadı var. Lakin qətiyyətlə demək olar ki, dastan yaratmaqda Nizami hamını ötüb keçmişdir. Heç kəs onun sənətkarlığı səviyyəsinə yüksələ bilməmişdir.

*Y. Rıpka*

Nizaminin bilik və kamalda böyüklüyü o dərəcədədir ki, yazmaqda qələm, söyləməkdə dil acizdir. Onun sözündə şirinlik, məlahət və gözəllik var. Odur ki, kamal sahibləri onu sevirlər.

*Dövlətşah Səmərqəndi*

Qoca dünya Nizami şeirindən gözəl heç bir söz tanımır.

*Hafiz Şirazi*

Söz gövhərinin boyunbağısını heç kim Nizami kimi düzməyib. Haqqın minlərlə rəhməti onun ruhuna ki, həqiqətən, şeir onunla xətm olunub.

*Saib Təbrizi*
*yazıçı, şair, mütəfəkkir*

Nizami məsnəvi yazanların ən irəlidə gedəni, dastan yazanların başçısıdır... Gəncə şairi həm lirik, həm də qəhrəmanlıq şeirlərinin hər ikisini yaratmaqda ustaddır.

*Məhəmməd Əli xan Tərbiyət*

Nizami öz şeirlərində gözəl həqiqətləri ifadə etmişdir. Qaranlıqları məhv edən işığı yada salmış... coşğun məhəbbət və ehtirasları tərənnüm etmişdir. Nizami sultanlara və varlılara qalib gəlmişdir, zəmanəyə qalib gəlmişdir.

*Nikolay Tixonov*
*tanınmış Rusiya şairi, nasiri və ictimai xadimi*

Aydındır ki, Nizami farsca yazıb. Azərbaycan xalqının düşmənləri olan burjua tarixçiləri, İran millətçiləri tərəfindən Nizaminin fars şairi kimi qələmə verilməsi və onun vətəni Azərbaycanla əlaqəsinin olmaması fikri yeni deyil. Ancaq bu həyasız yalan heç kimi aldada bilmədi.

*Nikolay Tixonov*
*tanınmış Rusiya şairi, nasiri və ictimai xadimi*

Dünya dühalarının birinci cərgəsində duran Nizamini biz qabaqcıl düşüncənin və əxlaqın müjdəçisi kimi əziləyirik.

*Nikolay Tixonov*
*tanınmış Rusiya şairi, nasiri və ictimai xadimi*

Yoğruldu bütün varlığın ümidlə hünərdən,
Şimşək kimi keçdikcə qaranlıq gecələrdən.
Hər kəlməni, hər şerini bir top kimi atdın,
Sevda yuxusundan bizi vaxtında oyatdın!

Xoş gəldin əzizim! Gəlişindən ana yurdu
Dünya evinə bir yeni söz məclisi qurdu...
Keçdikcə nəsillər o sənin söz çəmənindən,
Ellər, obalar dərs alacaqdır hələ səndən!
Ölməz bu gözəl aləmə idrakla gələnlər,
Məna evinin sirrini vicdanla bilənlər!
Sənsən ədəbiyyat dediyim sevgili dildar,
Daşlarda, çiçəklərdə, ürəklərdə adın var!
Aydanmı, günəşdənmi yarandın! De nədənsən!
Xalqın gözü də, vicdanı da sənsən!

*Səməd Vurğun*

Nizami öz xalqının ən gözəl ideallarını tərənnüm edirkən bütün bəşəriyyətin mənafeyini, yüksək duyğu və düşüncələrini tərənnüm edirdi. Məhz, buna görə böyük humanistin əsərləri bir xalqa və bir çox xalqlara deyil, bütün bəşəriyyətə məxsusdur. Biz Nizaminin varisləri, həqiqi beynəlmiləlçi ədəbiyyatın yaradıcıları xalqların ədəbiyyatda beynəlmiləlçiliyi, əməkdaşlığı və qardaşlığı mənasında öz əcdadımızın ən yaxşı ənənələrini davam və inkişaf etdirəcəyik.

*Səməd Vurğun*

Azərbaycan xalqının ən böyük oğlu Nizami Gəncəvinin yaradıcılığı Orta Asiya xalqlarının, o cümlədən, özbək xalqının mədəniyyətinə çox böyük təsir göstərmişdir. Nizaminin adı ölməzdir. Bu poeziya günəşinin hərarətindən ilhamlanıb kamilləşən təkcə heç də Nəvai deyildir.

*Kamil Yaşen*

Mən böyük Azərbaycan şairi Nizami Gəncəvini çox sevirəm, ... bu qüdrətli şairin ən gözəl məhəbbət eposlarından biri “Xosrov və Şirin” poemasıdır. Mən İkinci dünya müharibəsindən əvvəl Parisin Milli Kitabxanasında Nizami Gəncəvinin

“Xosrov və Şirin” əsərinin bir əlyazmasına rast gəldim. Əsər 14-cü əsrdə gözəl bir dildə türkcəyə tərcümə olunmuşdur. Həmin əsəri Polşada nəşr etdirdim.

*Zayonçkovski Ananiaş*